# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA İLKİN PEŞƏ BACARIQLARININ FORMALAŞDIRILMASININ ƏHƏMİYYƏTİ



**İlham Dadaşov,**
*Sumqayıt Dövlət Universitetinin Dil və ədəbiyyat kafedrasının baş müəllimi*
*e-mail: dadasov.ilham.69@bk.ru*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3023*

**UOT**: 373.2

**Xülasə.** *Məqalədə məktəbəqədər yaş dövründə ilkin peşəyönümlü işlərin aparılmasının uşaqların gələcək həyatlarında öz qabiliyyətlərinə uyğun müxtəlif peşələr üzrə bilik, bacarıq və vərdişlərə yiyələnməsində, müstəqil bir şəxsiyyət kimi formalaşmasında önəmli olduğu vurğulanır. Həmçinin bu fəaliyyət dönəmində valideynlərin məktəbəqədər təhsil müəssisəsi ilə daima sıx əməkdaşlıq etməsi, müəllim, valideyn və uşaq münasibətlərinin lazımi səviyyədə olması, təhsildə peşəyönümü fəaliyyətin keyfiyyətli təminatında, uşaqların yüksək nəticə əldə edərək uğur qazanmalarında stimulverici qüvvə olaraq göstərilir. Məktəbəqədər yaşlı uşaqlarla ilkin peşə xarakterli işlərin uğurla həyata keçirilməsində müəllimlərin pedaqoji ustalığının, peşəkarlıq səviyyəsinin və psixoloji biliklərə malik olmasının zəruriliyi qeyd edilir. Bundan əlavə, məqalədə keçirilən əmək və təsviri fəaliyyət məşğələlərinin kiçikyaşlı uşaqların ilkin peşəyönümlü fəaliyyətə hazırlığı ilə yanaşı, həm də onların mənəvi dünyasına, əqidəsinə, əməksevərliyinə, estetik baxışlarına və fiziki kamilliyinə müsbət təsir göstərməsi onların gələcək peşə seçimində vacib amil kimi öz əksini tapmışdır.*

***Açar sözlər:*** *ilkin peşə fəaliyyəti, müəllim-valideyn əməkdaşlığı, rollu oyunlar, peşə maraqları, texnoloji təfəkkür, pedaqoji ustalıq, praktik yaradıcı məşğələlər.*
***Keywords:*** *initial professional activity, teacher-parent cooperation, role-playing games, professional interests, technological thinking, pedagogical mastery, practical creative activities.*
***Ключевые слова:*** *начальная профессиональная деятельность, педагогико-родительское сотрудничество, учителя и родителя ролевые игры, профессиональные интересы, технологическое мышление, педагогическое мастерство, практическая творческая деятельность.*

Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların tədris prosesində, xüsusən də peşələrlə bağlı onlarda ilkin peşə xarakterli bacarıqlarının inkişaf etdirilməsi aktual məsələlərdən biridir. Çünki son zamanlar elmi-texniki tərəqqinin sürətli inkişafı, əldə olunan yeni nailiyyətlər, bu inkişafın tələblərinə uyğun yeni yaranmış peşələr və əmək bazarının cari tələbi bunu bizim üçün qarşıya mühüm vəzifə kimi qoyur. Bildiyimiz kimi, yaşadığımız dövrdə texnika və istehsalat inkişaf etdikcə müxtəlif peşələrin də məzmunu yenilənməyə məruz qalaraq dəyişib inkişaf edir. Məhz bu inkişafa uy-

ğunlaşmaqdan ötrü uşaqlarda müəyyən peşələrlə bağlı ilkin təsəvvürlər və dərin peşə hazırlığı bazasının yaradılması çox vacib məsələlərdən biri olaraq artıq məktəbəqədər yaş dövründən formalaşmağa başlamalıdır. Bununla bağlı tədris prosesində məktəbəqədər yaşlı uşaqların ilkin peşə maraqlarının və qabiliyyətlərinin yaş səviyyələrinə uyğun olaraq öyrənilməsi, xüsusilə də bu yönümdə maarifləndirmə tədbirlərinin daha səmərəli, aktiv, yaradıcı şəkildə aparılması olduqca çox vacibdir. Əsasən də, bu yaş dövründə peşəyönümlü fəaliyyət hərtərəfli təşkil olunaraq məqsədyönlü istiqamətdə planlaşdırılmalı və işlərin nədən ibarət olması uşaqlara çatdırılmalıdır. Belə bir yanaşma bilavasitə onların gələcək həyatlarında öz qabiliyyətlərinə uyğun müxtəlif peşələr üzrə bilik, bacarıq və səriştələrə yiyələnməsində önəmlidir. Fəaliyyətin bu tərzdə inkişafı nəticə olaraq uşaqlarda ilkin sahibkarlıq bacarıqlarının aşılanmasında, cəmiyyətə adaptasiyasında və bir şəxsiyyət kimi inkişaf edərək daha müstəqil formalaşmasında effektiv təsir etmək qüvvəsinə malikdir [8, s.104].

Bu baxımdan məktəbəqədər yaşlı uşaqlarda müxtəlif peşələrə maraq yaratmaq, onlarda peşələrlə bağlı ilkin təsəvvürləri formalaşdırmaq, peşə bacarıqlarını aşkarlamaq, bu yönümdə istedadlarını kəşf etmək, hansı peşəyə yiyələnmək istəyi və arzusunu, marağını nəzərə alaraq onlarla bu fəaliyyətə uyğun müzakirələr etmək lazımdır. Uşaqlara ayrı-ayrı sahələr üzrə sevdiyi peşələrlə əlaqədar hər bir peşənin məzmunu, mahiyyəti haqqında ətraflı məlumat vermək, məşğələləri yaradıcı baxımdan bu istiqamətdə təşkil etmək lazımdır ki, onlarda istədikləri peşələrə münasibətdə istək və maraq yaransın. Məktəbəqədər yaşlı uşaqlarla belə bir fəaliyyətin sistemli və ardıcıl biliklər sayəsində həyata keçirilməsi, peşəyönümlü tədbirlərlə bağlı həm məlumatların verilməsi, həm də müvafiq işlərin aparılması onları bacarıq və vərdişlərlə gücləndirir. Əldə olunan bu biliklər uşaqlarda kiçik yaş dövründən xeyirxahlıq, zəhmətsevərlik, yoldaşlıq, vətənpərvərlik, dözümlülük, estetik tərbiyə, bədii yaradıcılığın inkişafı və s. kimi müxtəlif şəxsi və əxlaqi keyfiyyətlərin təməlini qoymaqla yanaşı, onlarda peşəyönümlülüyü formalaşdırır [6, s.71]. Eyni zamanda bir çox amillər də vardır ki, məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə, peşəyönümlü fəaliyyətlərinin keyfiyyətli təminatına və təhsildə aktiv iştirakının həyata keçirilməsində həlledici rol oynayaraq müsbət təsir edir. Bunlar da, başlıca olaraq uşaqların valideynlərinin məktəbəqədər təhsil müəssisəsi ilə daima sıx əməkdaşlıq etməsi, onlarla qarşılıqlı fəaliyyətin dəqiq müəyyənləşdirilməsi, əsasən onların bu təhsil prosesində və tədrislə bağlı müəyyən lazımi tədbirlərdə mütəmadi olaraq daha fəal aktiv iştirakıdır. Belə ki, məktəbəqədər yaşlı uşaqların valideynlərinin təhsil prosesində öz övladlarına hər zaman dəstək göstərməsi, təhsilin həlli istiqaməti üzrə keyfiyyətinə və uşaqlarda psixi proseslərin inkişafına güclü təkan verir. Həm də ki, uşaqların kiçik yaş dövründə öz güclərinə müvafiq müxtəlif bacarıqların formalaşmasına, yüksək nəticə əldə edərək uğur qazanmalarına, səriştəli və müstəqil olmalarına ciddi təsir göstərməklə böyük əhəmiyyətə malikdir [3, s.92].

Məktəbəqədər təhsil müəssisəsi – valideyn əməkdaşlığı üzrə ünsiyyətin qaydalara uyğun olaraq aparılması birbaşa təhsilin keyfiyyətinə və müəyyən yaranmış problemli situasiyaların qarşısının alınmasına müsbət təsir edən ən önəmli faktorlardan biridir. Ona görə də məktəbəqədər yaşlı uşaqların peşə maraqlarını artırmaqdan ötrü valideynləri təhsil prosesinə hər zaman cəlb etmək lazımdır. Onlarla bu əməkdaşlığın əhəmiyyəti barədə müəyyən maarifləndirmə işləri aparmaq və uşaqların istedadlarının və qabiliyyətlərinin aşkarlanmasında valideynlərin də iştirakını təmin etmək lazımdır. Əsasən, kiçikyaşlı uşaqların məşğələlərdə aldıqları nəzəri, praktik biliyin evdə təkrar olaraq valideyn nəzarətində aparılması onların müxtəlif peşəyönümlü bacarıq və vərdişlərinin inkişafında mühüm yer tutur. Bu əməkdaşlığın təhsilin keyfiyyətli və tərbiyəvi xarakter daşıyaraq səmərəli şəkildə aparılması, davamlı olaraq daima tətbiq edilməsi, uşaqların potensialını üzə çıxararaq məktəbəqədər müəssisə ilə ailənin birgə fəaliyyətini daha da gücləndirir [4, s.52]. Ümumiyyətlə, məktəbəqədər yaşlı uşaqların ilkin peşə fəaliyyətinə olan şəxsi maraqlarının artırılması onlarda müxtəlif peşə sahələri üzrə maraq, meyil, imkanları barədə fikirlərin formalaşmasına və dünyagörüşlərinin genişlənməsinin inkişafına təsir etmək gücünə malikdir. Bu səbəbdən peşəyö-

nümlü işlərlə bağlı uşaqların marağına səbəb ola biləcək müxtəlif rollu oyunların, yarışların, ekskursiyaların təşkili və yaradıcı qabiliyyətlərini nümayiş etdirən müsabiqələrin, təqdimatların, əl işlərindən ibarət sərgilərin keçirilməsi məqsədəuyğun sayılır. Belə tədbirlər uşaqların aktiv fəaliyyətinə, psixoloji, fizioloji, əqli, intellektual və mənəvi cəhətdən hazırlıq durumuna, əxlaqi keyfiyyətlərinə, estetik tərbiyəsinə, xüsusilə də zövqün inkişafına səmərəli təsir edir. Nəticə etibarilə bu da məktəbəqədər yaşlı uşaqların özlərinin maraq dairəsinə, arzularına uyğun gələcək müstəqil həyatlarında əmək bazarının tələblərinə və müasir dövrə münasib düzgün peşə seçmək barədə qərarın qəbul edilməsində lazımi səviyyədə yardım göstərə bilər. Bundan başqa, onların şüurlu olaraq sevərək seçdikləri peşələrdə lazımlı və dəyərli olduqlarını hiss etmələrində də birbaşa kömək olacaq [10, s.139].

Bütün bu ilkin peşə xarakterli yaradıcı işlərin məzmununa daxil olan əsas amillərin məktəbəqədər yaşlı uşaqlarla keyfiyyətli tərzdə həyata keçirilməsində və lazımi nailiyyətlərin əldə olunmasında əsas məsuliyyət, təbii ki, müəllimlərin üzərinə düşür. Deməli, bu işlərin uğurlu gedişatı müəllimlərin geniş potensialından, elmi fəaliyyətindən, yüksək mədəniyyətindən, pedaqoji ustalığından, peşəkarlıq səviyyəsindən və psixoloji biliklərə kifayət dərəcədə malik olmasından çox asılıdır. Müəllimin, xüsusən də, praktik və laborator məşğələlərdə əməksevərlik istiqamətini gözləməklə görülən işləri və bu işlərə özünəməxsus şəkildə yaradıcı yanaşması uşaqlarda müxtəlif xarakterli bilik və bacarıqların inkişaf etməsinə yardımçı olaraq onları daha da mükəmməlləşdirir. Məşğələlərdə müəllim hər zaman çalışmalıdır ki, uşaqların qazandıqları bacarıqların peşəyönümlü tərəfini onların təsəvvürlərində canlandıraraq möhkəmlətsin və inkişaf etdirsin. Həm də keçirilən məşğələlərdə əməyin mahiyyətini kiçikyaşlı uşaqlara doğru izah etməklə onlarda əməyə yaradıcı münasibət və öz əməyinin nəticəsindən razı qalmaq kimi hissi formalaşdırsın. Xüsusən, məktəbəqədər yaşlı uşaqlarla keçirilən müxtəlif məşğələ növlərindən əmək (özünəxidmət əməyi, təsərrüfat və məişət əməyi, təbiətdə əmək, əl əməyi və s.), təsviri fəaliyyət (naturadan rəsm, dekorativ rəsm, mövzu üzrə rəsm, təsviri sənət haqqında müsahibələr və s.) üzrə məşğələləri qeyd etmək olar ki, bu rəsm və əmək növləri üzrə keçirilən məşğələlərdə uşaqların əməyə, təsviri fəaliyyət prosesinə cəlb edilməsi onların hər cəhətdən yaradıcı fəaliyyətlərini tərbiyə edir [7, s.153]. Məsələn, özünəxidmət əməyi, təsərrüfat və məişət əməyinin fəaliyyəti uşaqlarda zəruri biliklər, müstəqillik, qayğıkeşlik, kollektivçilik, praktik fəaliyyətə hazırlıq, fərdi, həm də ictimai əşyalara ehtiyatla yanaşmaq, öz-özünü və vaxtını bölüşdürmək bacarığı kimi tərbiyəvi əhəmiyyətə malik tərəfləri inkişaf etdirir. Təbiətdə əmək və əl əməyi məşğələlərində artıq kiçikyaşlı uşaqlarda sağlamlıq, hərəkətlərinin kamilliyi, əqli və sensor (hiss edən, hissedici, sezici) müşahidəçilik, məsuliyyət hissi, ciddi münasibətlərin yaranması, əməyə maraq və əmək adamlarına hörmət hissi, konstruktiv məsələlərin yerinə yetirilməsində yaradıcı fəallıq və s. kimi xüsusi bacarıqların inkişafı həyata keçirilir. Uşaqların, xüsusən də bu əmək məşğələləri prosesi şəraitində qazandıqları əqli, mənəvi, estetik, fiziki, politexnik, quraşdırıcılıq, texnoloji bacarıqlar onlarda müxtəlif ilkin peşə qabiliyyətlərinin inkişafında və bir şəxsiyyət kimi formalaşmasında müstəsna əhəmiyyətə malikdir. Bunun müqabilində artıq uşaqlarda işgüzarlıq, xeyirxahlıq, insanların işinə yaramaq, xeyir vermək kimi ictimai motivlər yaranıb inkişaf edir.

Təsviri fəaliyyət məşğələlərində isə uşaqların mənəvi mədəniyyəti formalaşır, əqli və estetik tərbiyə cəhətdən kamilləşir. Onlarda ətraf mühiti dərketmə bacarığı, təbiətin, əşyaların formasını, rəngini, materialını, onların vəhdətini, gözəlliyini hiss etməklə təsvirlərdə əksetdirmə qabiliyyəti yaranır. Təsviri fəaliyyət uşaqların düşüncələrinə, hislərinin inkişafına aydın və canlı təsir edərək, həqiqətin daha dolğun anlamasını tərbiyə edir [2, s.72]. Onlarda estetik tələbləri inkişaf etdirir, müasirliyə, yaradıcılığa can atmaq kimi keyfiyyətlər aşılayır. Bu keyfiyyətlərin əldə olunması üçün sadaladığımız məşğələlərdə bacarıq və vərdişlərin məktəbəqədər yaşlı uşaqlara əyani, praktik formada tədbiq olunmalı, elmi-nəzəri prinsiplərə əsaslanaraq aparılmalıdır.

Onu da qeyd edək ki, elmi əsaslara söykənərək peşəyönümlü işlərin müəllimlər tərəfindən ardıcıllıqla və müxtəlif prinsiplərdən, metodlardan istifadə etməklə aparılması təhsil prosesində daha gözəl nəticə verməklə məktəbəqədər yaşlı

uşaqların inkişafını stimullaşdırır. Eyni zamanda bu işlərin uğurlu gedişatı üçün, qeyd etdiyimiz kimi ən mühüm məsələlərdən biri müəllimin psixoloji biliklərə kifayət qədər malik olmasının vacibliyidir [5, s.84]. Müəllimin uşağın özünəməxsus və qanunauyğun psixikasını bilməsi kiçikyaşlı uşaqların psixoloji durumlarının anlamasında, dəyərləndirməsində, onlara fərdi olaraq xüsusi yanaşma prosesində müxtəlif metodlardan istifadə etməklə nəzərə çarpacaq dərəcədə böyük üstünlüklər verir. Uşaq inkişaf etdikcə daha mürəkkəb psixoloji keyfiyyətləri və əxlaq normalarını mənimsəyir, zəngin daxili aləmə malik olmaqla özünün bir şəxsiyyət kimi formalaşması üçün ilkin əsası yaradır. Bu da təhsil prosesində uşaqların peşəyönümlü fəaliyyətə şüurlu münasibətini daha da aktivləşdirir və əməyə psixoloji cəhətdən hazırlayır. Onlarda qavrama, psixomotorika, iradə, təfəkkür, emosiya, diqqət kimi psixi prosesləri inkişaf etdirərək təkmilləşdirir. Belə bir gedişat uşaqlarda peşələrə marağı formalaşdırır, əməyin bacarıq və vərdişlərinə müvəffəqiyyətlə yiyələnməsi üçün münbit şərait yaradır.

Təcrübə göstərir ki, qeyd etdiyimiz məşğələlərdə ümumi əmək şəraitinin yaradılması çox vacib məsələlərdən biridir. Müəllimlərin mütəmadi olaraq müasir texnologiyalardan, əyani vasitələrdən lazımi səviyyədə istifadə etməsi, özlərinin şəxsi nümunəsi böyük əhəmiyyətə malik olub, pedaqoji prosesi maraqlı, rəngarəng, zövqlü və daha məzmunlu edir. Müəllimlərin belə bir fəaliyyəti uşaqlarda ilkin peşə vərdişlərinin aşılanmasını, müxtəlif bacarıqlara müvəffəqiyyətlə yiyələnməsini sürətləndirir [9, s.112]. Bu səbəbdən müəllimlərin məşğələlərin keyfiyyətini artırmaqdan ötrü istifadə etdikləri müxtəlif üsul və vasitələrin uşaqlar tərəfindən daha yaxşı qəbul edilərək mənimsəməsi üçün mütləq şəkildə onlara sevgi və hörmətlə yanaşılması çox vacibdir. Belə bir yanaşma artıq kiçikyaşlı uşaqların tədris şəraitində özlərinə qarşı hörmət və inamın göstərilməsini hiss etmələrində, özlərinin nə qədər dəyərli, lazımlı olduqlarını anlamalarında yardımçı ola bilər. Həm də uşaqların təhsilinə, peşə fəaliyyətlərinin stimullaşdırılmasına və bu yönümdə geniş perspektivlərin əldə olunmasına təkan verər. Uşaq yaradıcılığı məsələlərinin inkişafını, onlar üçün tam əlverişli şəraitin yaradılmasını və onlarda müxtəlif çalarda olan bacarıqların daha müsbət tərəfə yönləndirilməsini hərtərəfli formada təmin edər.

Göründüyü kimi, müəllimin əsas fəaliyyəti məktəbəqədər yaşlı uşaqlarla təlim-tədris və tərbiyə prosesini müasir dövrün tələblərinə cavab verə biləcək səviyyədə təşkilidir. Həmçinin peşə xarakterli işlərin ilkin hazırlıq dönəmini uğurla aparmaqdan ötrü müəllim hər bir məqamdan və sadaladığımız iş üsullarından lazımi səviyyədə istifadə etməsidir [9, s.94]. Uşaqların artıq bu fəaliyyət nəticəsində qazandıqları bilik onların peşə seçimində qarşılarına məqsəd qoymaq, onu reallaşdırmaq üçün vasitə tapmaq və yaranan çətinliyi tez bir zamanda aradan qaldırmaq kimi bacarıqları inkişaf etdirir. Deməli, belə bir nəticəyə gəlmək olar ki, müasir dünyamızda ziddiyyətli, çətin, mürəkkəb və yüksək dinamik inkişaf şəraitində, xüsusilə, məktəbəqədər yaşlı uşaqların dövrün tələblərinə uyğun olaraq ilkin peşə tələbatlarının formalaşdırılmasının kompleks şəkildə inkişaf etdirilməsi təxirəsalınmaz vəzifələrdən biridir. Onu da vurğulamaq lazımdır ki, bu vəzifələrin həyata keçirilməsi uşaqların inkişafında özünəməxsus xüsusiyyətə malik olaraq müəyyən mərhələlərdən ibarət uzun bir prosesdir. Bu prosesin lazımi səviyyədə aparılması müasir dövrdə rəqabətin gündən-günə gücləndiyi bazar iqtisadiyyatı şəraitində məktəbəqədər yaşlı uşaqların texnoloji təfəkkürünün inkişafına zəmin yaradır. Onlarda müxtəlif səpkidə peşəyönümlü bacarıqların inkişafına, peşə fəaliyyəti üzrə davamlı olaraq zəruri bilik və bacarıqların əldə olunmasına xidmət edir.

**Nəticə.** Beləliklə, yekun olaraq məktəbəqədər yaşlı uşaqların ilkin peşə bacarıqlarının formalaşmasında, inkişaf etməsində, özlərinin istəklərinə uyğun müvafiq peşələrə yiyələnməsində məktəbəqədər müəssisənin, ailənin birgə qarşılıqlı məhsuldar fəaliyyəti ilə bağlı düzgün təhsil strategiya seçimi olmalıdır. Məhz bu düzgün seçim uşaqların qarşılarına qoyduqları məqsədlərə nail olmalarına effektiv təsir etmək gücünə malikdir. Onların seçdikləri peşənin sirlərinə daha peşəkarcasına dərindən yiyələnmələrinə, bilik və bacarıqların qavranılması istiqamətində müsbət nəticəyə nail olmalarına və gələcəkdə uğurlu nailiyyətlər əldə etmələrinə çox geniş imkanlar yaradır. Bunun üçün də uşaqların ilkin peşə bacarıqlarının həlli yolunda düşünülmüş addımlar

atıb qarşıya çıxan problemləri həll edərək onların peşə qabiliyyətlərini inkişaf etdirməklə təyin olunmuş istiqamət üzrə irəliləyişə nail olmaq olar. Bu da gələcək perspektivdə məktəbəqədər yaşlı uşaqların cəmiyyətə adaptasiyasına effektiv təsir edərək müasir əmək bazarı tələblərinə cavab verən, müxtəlif peşələrə tez bir zamanda asanlıqla uyğunlaşan və onlara yiyələnərək səmərəli nailiyyətlər əldə edən kadrların formalaşmasında önəmli rol oynayır.

### İstifadə edilmiş ədəbiyyat

1. Ağayev Ş. Məktəbəqədər yaşlı uşaqların quraşdırma işlərinin təşkili metodikası (metodik vəsait). Bakı, “Nasir” nəşriyyatı, 2005, 79 s.
2. Əkbərova M. Təsviri sənət və onun tədrisi metodikası (dərslik). Bakı, “Avanqard E.H.” MMC, 2012, 240 s.
3. Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı, “Maarif” nəşriyyatı, 2010, 168 s.
4. Əliyeva Ş. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, “Azərbaycan” nəşriyyatı, 2010, 174 s.
5. Həmzəyev M. Pedaqoji psixologiya. Bakı, “Maarif” nəşriyyatı, 1991, 132 s.
6. Həsənov A. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi. Bakı, “Azərbaycan” nəşriyyatı, 1993, 146 s.
7. Həsənov M. Ağayev Ş. və b. Uşaqlar üçün əməli məşğələlər. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2012, 220 s.
8. İlyasov M. Peşəyönümünün əsasları (dərs vəsaiti). Bakı, “Mütərcim” nəşriyyatı, 2011, 324 s.
9. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri (monoqrafiya). Bakı, “Elm və təhsil” nəşriyyatı, 2018, 208 s.
10. Orucov Z. Peşə təliminin nəzəri və praktiki məsələləri. Bakı, “Mütərcim” nəşriyyatı, 1997, 228 s.

**I.Dadashov**

### The importance of formation of primary professional skills in preschool age children

**Abstract**

The article emphasizes that conducting primary vocational work in preschool age is important for children to acquire knowledge, skills and habits in various professions in accordance with their abilities in their future lives, and to form an independent personality. Also, during this period of activity, parents' constant close cooperation with the preschool educational institution, the necessary level of teacher, parent and child relations, vocational orientation in education are shown as a stimulating force in ensuring the quality of activities, and in children achieving high results and achieving success. The necessity of teachers' pedagogical skills, professionalism and psychological knowledge is noted in the successful implementation of primary vocational work with preschool children. In addition, the article reflects the fact that the labor and visual activity classes conducted in the article, in addition to preparing young children for their initial vocational activities, also have a positive impact on their spiritual world, beliefs, industriousness, aesthetic views, and physical perfection, which is an important factor in their future career choice.

**И.Дадашов**

### Значение формирования начальных профессиональных навыков у детей дошкольного возраста

**Аннотация**

В статье подчеркивается, что проведение первичной профессиональной работы в дошкольном возрасте имеет важное значение для приобретения детьми знаний, умений и навыков по различным профессиям в соответствии с их способностями в дальнейшей жизни, формирования самостоятельной личности. Также в этот период деятельности постоянное тесное взаимодействие родителей с дошкольным образовательным учреждением, необходимый уровень педагогических, детско-родительских отношений, профессиональная ориентация в образовании показаны как стимулирующая сила в обеспечении качества деятельности, достижении детьми высоких результатов и успехов. Отмечается необходимость педагогического мастерства, профессионализма и психологических знаний педагогов для успешного осуществления первичной профессиональной работы с детьми дошкольного возраста. Кроме того, в статье отражено, что проводимые в статье занятия по трудовой и изобразительной деятельности, помимо подготовки детей раннего возраста к первичной профессиональной деятельности, оказывают положительное влияние на их духовный мир, убеждения, трудолюбие, эстетические взгляды и физическое совершенство, что является важным фактором выбора ими будущей профессии.